# *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT 371.

***Əsmət İdris qızı İsmayılxanova***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

## DÜNYA ÖLKƏLƏRİNDƏ TƏHSİLİN İDARƏ OLUNMASI TƏCRÜBƏSİ

***Асмет Идрис гызы Исмаилханова***
*доктор философии по педагогике, доцент Азербайджанского Государственного Педагогического Университета*

## ОПЫТ УПРАВЛЕНИЯ ПРОЦЕССОМ ОБРАЗОВАНИЯ В СТРАНАХ МИРА

***Asmet Idris Ismayilkhanova***
*PhD in pedagogy, associate professor of Azerbaijan State Pedagogical University*

## EXPERİENCE İN MANAGİNG THE PROCESS OF EDUCATİON İN THE WORLD

**Xülasə:** Məqalədə dünya ölkələrində təhsilin idarə olunmasının təkamül mərhələləri, elmi-idarəetmə məktəbləri, onların banilərinin qiymətli fikirləri, məktəbi idarəetmə prinsipləri, bu sahədə əldə edilmiş elmi-texniki yeniliklər və dünyanın inkişaf etmiş ölkələrinin idarəetmə təcrübəsindən bəhs olunur.
***Acar sözlər***: *klassik və inzibati idarəetmə məktəbi, planlaşdırma, motivləşmə, marketinq davranış məktəbi, kibernetika, kvazi-market, bakalavr-subbakalavr, inzibati idarəetmə məktəbi*

**Резюме:** Встатье описываются этапы эволюции управления образовательными процессами в разных странах мира, национально-управленческие школы, ценные мысли их основателей, принципы управления школой, научно-технические достижения в этой области и практика управления в развитых странах мира.
***Ключевые слова***: *классическая и административная школа управления, планирование, мотивирование, школа поведенческого маркетинга, кибернетика, квази-рынок, бакалавр-суббакалавр, административная школа управления*

**Summary:** The article describes the evolutionary stages of education in different countries of the world, schools of thought on scientific management, valuable opinions of the founders of these schools, principles of school management, scientific and technical achievements in this area, as well as the practice of management in the developed countries of the world.
***Key words:*** *classical and administrative management school, planning, motivation, behavioural marketing school, cybernetics, quasi-market, bachelor-subbachelor, administrative management school.*

Hazırda dünyanın 50-yə qədər ölkəsində təhsilin idarə olunması təcrübəsi öyrənilmiş, beynəlxalq məsləhətçilərin iştirakı ilə geniş təhlil olunmuş, müvafiq struktur dəyişiklikləri ilə bağlı tədbirlər planı hazırlanmışdır. Ümumiyyətlə, dünyada idarəetmə təcrübəsi çox qədimdir. Bir elm kimi XX əsrin əvvəllərində yaranmışdır və bu tarix 1911-ci ildə sahibkar alim olan Fridrix Teylorun "Elmi idarəetmənin prinsipləri" adlı kitabının nəşrindən başlanır. Həm də idarəetmənin bir elm kimi meydana gəlməsinin kökləri, hələ XX əsrin ortalarındakı İngiltərə sənaye inqilabına və Amerika dünya bazarına gedib çıxır. Deməli, idarəetmə bütün tarix boyu mövcud olmuşdur. Amma onun təsiretmə xüsusiyyətləri - icra mexanizmi başqa cür olmuşdur. Əslən fran-

sız olan Amerikalı sahibkar Anri Fayol idarəetmə barədə ilk dəfə sistemli şəkildə nəzəriyyə irəli sürmüşdür. İdarəetmə elmi öz inkişafına görə aşağıdakı təkamül mərhələlərini keçmişdir:

1. Elmi idarəetmə məktəbi (1885-1920)

2. Klassik və ya inzibati idarəetmə məktəbi (1920-1950)

3. İnsani münasibətlər məktəbi (1930-1950)

4. Müasir idarəetmə məktəbi (1950-indiyədək), (4, 13)

Elmi idarəetmə F.U. Teylor, Frenk və Liliya Qilbrettlər və Henri Hanttın işləri ilə daha çox bağlıdır və təqribən 1885-1920-ci illəri əhatə edir. Bu məktəbin baniləri hesab edirdilər ki, müşahidə, ölçmə, məntiq və təhlildən istifadə etməklə bir çox əl əməyini təkmilləşdirmək olar. Bu məktəb:

- əl əməyinin yüngülləşdirilməsi;
- qısa fasilələr verilməsi;
- iş və vaxt normaları qoyulması;
- artıq iş üçün mükafat verilməsi;
- idarəetmə əməyinin fiziki əməkdən ayrılması proseslərini bərqərar etdi (4, 12).

İnzibati idarəetmə məktəblinin yaradıcıları isə, təşkilatın ümumilikdə idarə edilməsinin təkmilləşdirilməsi yollarını axtarırdılar. Klassik idarəetmə məktəbinin cəmiyyət üçün həyata keçirdiyi başlıca yenilik, əvvəllər tətbiq olunan idarəetmə təcrübəsi əsasında yeni elmi yanaşmalar və çalarlar gətirməsidir. Bu məktəb idarəetmə prinsiplərini, funksiyalarını, metodlarını və üslublarını müəyyən etməklə yanaşı, onların təcrübi olaraq həyata keçirilməsi mexanizmini də hazırlamış oldu. A. Fayolun idarəetmə nəzəriyyəsinə əsas töhfəsi ondan ibarətdir ki, o, idarəetmə prinsiplərini sistemləşdirdi və bir neçə qarşılıqlı əlaqəli funksiyaları menecmentin universal funksiyaları kimi təqdim etməklə onların tətbiqinə tam proses kimi baxırdı. Bu funksiyalara misal olaraq planlaşdırma, təşkiletmə, motivləşdirmə, nəzarət, marketinqi göstərmək olar. İnzibati idarəetmə məktəbi idarəetmə prinsiplərini aşkarladı, idarəetmə funksiyalarını təsvir etdi və təşkilatın bütünlüklə idarə olunmasına sistemli yanaşmanı izah etdi. Bu məktəb:

- idarəetmə prinsiplərini;
- idarəetmə quruluşunu;
- idarəetmə funksiyalarını;
- menecmentin metodlarını;
- menecmentin üslublarını elmi surətdə müəyyənləşdirdi və bərqərar etdi.

Menecmentdə insani münasibətlər məktəbinin yaranmasında və inkişafında ən böyük xidməti olan iki alimi - Meri Parker Follett və Elton Meyonu göstərmək olar. İlk dəfə xanım Meri Folett menecmenti “digər adamların köməyi ilə işin yerinə yetirilməsinin təmin edilməsi” kimi təyin etmişdir. Davranış məktəbinin baniləri, əsas etibarı ilə şəxslər arasında münasibətlərin yaradılması metodlarına diqqət yetirməklə, insani münasibətlər məktəbini daha çox zənginləşdirdilər. Ümumiyyətlə, demək olar ki, bu məktəbin əsas məqsədi insanların qabiliyyətləri və səyləri hesabına təşkilatların effektivliyini artırmaq idi. Müasir idarəetmə (kəmiyyət) məktəbi – modellərin qurulması, kompüterlərin tətbiqi, yüksək rabitə texnologiyası, iqtisadi-riyazi üsulların tətbiqini menecmentə gətirdi və çox böyük dəqiqliklə həyata keçirdi. Bu məktəb:

- kibernetikanı
- informatikanı
- iqtisadi-riyazı modelləri
- kompüter texnologiyasını
- mürəkkəb rabitə texnologiyasını və s. elmi-texniki yenilikləri bərqərar etdi.

Hazırda idarəetmə məktəblərinin hazırlayıb bizə miras qoyduqları bütün klassik idarəçilik qaydaları daha da təkmilləşdirilir və demək olar ki, idarəetmə ilə bağlı bütün sahələrə tətbiq olunur.

Təhsilin inkişafı üzrə dövlət strategiyasında üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir. Bunları nəzərə alaraq təhsil sistemində və eləcə də təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsi və onun təhsilin keyfiyyətinin yüksəldilməsinə təsiri ilə əlaqədar elmi araşdırmalar apararkən, məhz inkişaf etmiş dünya dövlətlərinin təcrübəsindən istifadə etmək məqsədə uyğun hesab edilir.

İnkişaf etmiş dünya dövlətləri(Almaniya, ABŞ, Hollandiya, Rusiya, Yaponiya, İngiltərə və b.) müxtəlif dövrlərdə təhsilin idarə olunmasının və təhsilin məzmununun təkmilləşdirilmə-

si ilə əlaqədar yenilikləri öz təhsil sisteminə tətbiq etmiş və təhsildə mütərəqqi idarəetmə prinsiplərinin inkişaf mərhələlərini müəyyənləşdirmişlər. Ş. Qəribov, İ. Əsədova, T. İsmayılova, M. Kazımov, F. Həsənoğlu belə hesab edirlər ki, ”onların istifadə etdikləri təhsil standartlarının tələbləri təhsildə keyfiyyətin idarə edilməsində dövlət siyasətinə və dövlətin kadr hazırlığı sahəsində olan maraq və mənafelərinin bir qayda olaraq qorunmasında əsas rol oynayır”(6,157). 2014-cü ildə Britaniya Şurası tərəfindən dəstəklənən Tədqiqatçı Əlaqələri seminarında İngiltərədən və Azərbaycandan olan tədqiqatçılar bu ölkələrdə məktəblərin idarə olunması sistemi ilə əlaqədar aparılacaq dəyişikliklər və təkmilləşdirmələri müzakirə etmək üçün bir araya gəldilər. Layihəyə Xəzər Universitetinin rektoru Hamlet İsaxanlı, Təhsil fakültəsinin dekanı, filoloq Elza Səmədova və Nottinqam Universitetinin professorları Hovard Stevenson və Kris Dey rəhbərlik edirdi. Bu seminarın məqsədi dünyanın aparıcı və gənc tədqiqatçılarını, təhsil siyasətçilərini bir araya gətirərək həm məktəb səviyyəsində, həm də bütövlükdə təhsil sisteminin təkmilləşməsində təhsilin idarə edilməsinin rolu ilə əlaqədar bilikləri bölüşməkdir.

H. Stevenson belə hesab edir ki, “İngiltərədə məktəb rəhbərliyi yerli idarəetmə mühitinin tələb etdiyi bacarıqların inkişafına daha çox diqqət yetirir. Bir çox şərhçilər bunu status-kvonun saxlanmasından daha çox dəyişikliyə yönələn liderliyə keçid kimi təsvir edirlər”(3, 12).

İngilis məktəb sistemi çox vaxt sövq olunduğu market və ya “kvazi market” kimi dəyərləndirilir. Məktəblərin biznes kimi fəaliyyət göstərməsi daha dəyərli hesab olunur. İddia edilir ki, səmərəliliyin artmasına və yarış standartlarının daha da “yüksəlməsinə” gətirib çıxaracaqdır. E. Səmədli verdiyi məlumatda qeyd etmişdir ki, ”2013-2014-cü tədris ilinin yay ayları ərzində Azərbaycanın 57 regionunda təşkil etdiyimiz və təxminən 2000-dən çox rəhbərin iştirak etdiyi “İdarəetmədə qərarların verilməsində qiymətləndirmə nəticələrindən istifadə” adlı təlimlərin nəticəsi göstərdi ki, Azərbaycandakı məktəblərdə beynəlxalq və milli qiymətləndirmələrin nəticələri nəinki təhlil edilmir, hətta onlar bu imtahanlar haqqında kifayət qədər məlumata sahib deyillər ”(3,14).

Son on ildə İngiltərə məktəblərində yardımçı heyətin sayının birmənalı şəkildə artması əvvəlki hökumət tərəfindən müəyyən islahatların aparılmasına, sinif müəllimləri və məktəb rəhbərlərinin inzibati və bürokratik yükünü azaltmaq üçün məktəblərə yardımçı heyətin əhəmiyyətli dərəcədə axınına təkan vermişdir. Hazırda yardımçı heyət İngiltərədə məktəb işçilərinin ən yüksək faizini təşkil edir. Məktəblərdə Manchester Universitetinin müəllimi Paul Armstronqun verdiyi məlumata görə, ”biznes menecerlərinin fəaliyyəti 2002-ci ildə milli təlim və inkişaf proqramının başlanması ilə eyni dövrdə meydana çıxdı və İngiltərədə məktəblərdə bu vəzifənin icraçılarının sayı hazırda 13,000-dən çox olduğu hesab edilir”(3,20).

Rusiya Federasiyasının orta ixtisas təhsili müəssisələrində keyfiyyətin idarə olunması mərkəzləşdirilmiş qaydada baş idarə tərəfindən yaradılan xüsusi komissiyanın fəaliyyəti, təhsil müəssisəsinin direktoru, tədris-tərbiyə işləri üzrə direktor müavini, gənclər təşkilatı, tələbə həmkarlar təşkilatı və qrup rəhbərləri tərəfindən həyata keçirilir. Rusiya dövlət təhsil standartı təhsilin keyfiyyətinin idarə edilməsinə xüsusi tələblər qoyur. Kolleclərdə təhsilini yüksək göstəricilərlə başa vuran hər bir məzunu həm ilkin peşə ixtisası alır, öz təhsilini ali təhsil müəssisələrində davam etdirmək və istədiyi vaxt öz ixtisasını dəyişmək hüququ verir. ABŞ-ın orta ixtisas təhsili verən məktəblərində tədrisin idarə olunması müxtəlif sistemlərə bölünür. Təhsil proqramının yerinə yetirilməsi, təlim keyfiyyətinin və təhsilin təşkilinin idarə olunması kollec rəhbərliyi onun müavinləri, şöbə müdirləri və tyutorlar tərəfindən icra olunsa da federal hökumətin təşkil etdiyi xüsusi komissiya tərəfindən tədris ili boyu izlənilir və nəzarət edilir.

14 yaşınadək olan gənclər müxtəlif təmayüllü siniflərdə oxuyarkən gələcək ixtisaslarını özləri müəyyənləşdirirlər. Tədris planları hazırlayan mərkəzlər bu sahə üzrə olan mütəxəssisləri dəvət edir. Onların iştirakını təmin edir, həmin mütəxəssislərin rəy və təklifləri nəzərə alınır. Bu tədris planlarında və proqramlarında regionun təhsil standartlarının bölmələrində mütəxəssis hazırlığı ilə məşğul olan təhsil müəssisələri qarşısında qoyduğu tələblər öz əksini tapır və bu tələblər də təhsil müəssisələrində təhsilin keyfiyyətinin idarəedilməsi prosesində dövlət

tələblərinə uyğun qurulması əsas götürülür. Dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiyada təhsilin keyfiyyətinə elmi əsaslarla bilik hazırlığına, onların metodiki və texniki təminatına xüsusi fikir verilir. Keyfiyyət göstəricilərinə cavab verməyən təhsil müəssisələri akkreditasiya prosesinə buraxılmırlar, onlara fəaliyyət lisenziyası və sertifikat verilmir. Yaponiyada xüsusi sertifikatı olmayan təhsil müəssisələrində təhsili təşkil etmək çətin olur. Burada müəllim hazırlığı tam orta məktəb bazasından tədris müddəti 2-3 il olan aşağı kolleclərdə tələbələr müəyyən müəllim diplomunu ala bilərlər. Yaponiyada pedaqoji təmayüllü universitetlərə və kolleclərə qəbul olunmaq üçün yüksək bal tələb olunur. Bu da gələcək ümumtəhsil məktəblərində müəllim kimi fəaliyyət göstərilənlərin qarşısına yüksək tələbkarlıq qoyulur (6,159).

Hollandiyada ümumtəhsil məktəblərində tədris prosesinin təşkili və onun keyfiyyətinin idarəedilməsi həmişə ön planda olur. Burada ixtisaslaşdırılmış təmayüllü məktəblərdə təhsili başa vuran məzunlara attestatla birlikdə xüsusi ixtisas fəaliyyəti göstərən sertifikatlar da verirlər. Hollandiyada kolleclərdə və ali texniki peşə və pedaqoji sahədə təhsil almaq istəyən məzunlar iki il əvvəl seçilir və onlara bu iki ildə istiqamət üzrə hazırlıqlar aparılır. Testlər və digər imtahan sənədləri dövlətin sifarişi ilə müstəqil fəaliyyət göstərən “Qiymətləndirmə üzrə mərkəzi institut” tərəfindən fənlər üzrə hazırlanır. İmtahanlar məktəbin rəhbərləri tərəfindən yaradılmış xüsusi komissiyaların tərkibinə daxil olan müəllimlər tərəfindən həyata keçirilir.

İngiltərədə orta ixtisas təhsili məktəblərində tələbələrin ixtisas səviyyəsinin müəyyən etmək və fənnin tələbələr tərəfindən keyfiyyət və mənimsəmə səviyyəsini müəyyənləşdirmək məqsədilə yoxlama imtahanları aparılır. Bu imtahanların yazılı test sualları vasitəsilə keçirilməsi kurikulumun idarə edilməsi ilə məşğul olan təşkilat tərəfindən məxfilik təmin edilmək şərtilə həyata keçirilir. Bütün növ imtahanların nəticələri hərfi işarələrlə ifadə olunur. Məktəb tərəfindən üç mənimsəmə səviyyəsində (yüksək, orta, aşağı) qiymətləndirmə aparılır və bu səviyyədə formalaşan qruplara bölünür. İngiltərədə bakalavr və subbakalavr səviyyəsində qəbulun idarə edilməsi bəzi üstünlüklərə malikdir. Belə ki, orta məktəblər və “Ey-Level” siniflər üzrə ölkə səviyyəsində aparılmış buraxılış imtahanlarının nəticələri və orta təhsil haqqında alınmış sertifikatlar arasında həyata keçirilir.

**Məqalənin aktuallığı**. Hazırkı dövrdə Azərbaycan təhsilinin Qərb təhsil sisteminə inteqrasiyası təhsilin idarə olunmasının vacibliyini ön plana çəkmişdir. Odur ki, məqalə bu baxımdan aktuallıq kəsb edir. Belə ki, məqalədə idarəetmə bir elm kimi verilmiş və onun təkamül mərhələləri, bu sahədə xarici ölkələrin təşkil etdiyi müxtəlif təmayüllü məktəblərin yaranması və iş prinsipləri işıqlandırılmışdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə dünyanın 50-yə yaxın ölkəsində təhsilin idarə olunması təcrübəsi öyrənilmiş, beynəlxalq məsləhətçilərin iştirakı ilə geniş təhlili verilmiş, müvafiq struktur dəyişiklikləri ilə bağlı hazırlanmış tədbirlər planı haqqında geniş məlumat verilmişdir.

**Məqalənin tətbiqi sahələri.** Məqalədə verilmiş idarəetmə elminin təkamül mərhələləri, inzibati idarəetmə məktəbinin yaradıcılarının apardıqları məqsədyönlü tədqiqatlar, bu məktəbin idarəetmə prinsipləri, müasir idarəetmə məktəbi-modellərinin qurulması və s. bu sahədə tədqiqat aparan mütəxəssislər üçün mənbə hesab oluna bilər.

## Ədəbiyyat:

1. Ağayev Ə., Hüseynli S., İbadova M., Məmmədova İ. Təhsilin konseptual problemləri. Azərbaycan Respublikası Təhsil Problemlər İnstitutu, Bakı, 2008.

2. Abbasov O. A. Təhsilin idarə olunması. Bakı: MM-S, 2016.

3. Azərbaycanda və Böyük Britaniyada təhsil liderliyi və siyasəti: Məktəbin inkişafı üçün potensialın artırılması Tədqiqatçı Əlaqələri seminarının materialları. Bakı: Xəzər Universiteti, 2015.

4. Hüseynov İ., İsayev A., Əhmədov Z., Əliyev Ə. Müasir məktəb idarəetməsi və təhsil menecmentliyi. Peşəkar inkişaf mərəzi, Bakı, 2017.

5. Həmidov H. A. Azərbaycanda təhsil siyasəti: mərhələli inkişaf və konspektual aspektlər. Bakı:Təknur, 2010.

6. Qəribov Ş., Əsədova İ., İsmayılova T., Kazımov M., Həsənoğlu F. Təhsilin idarə edilməsinin aktual problemləri. Bakı:"Şahin-MB" MMC, 2016.

**E-mail**: a.ismayilxanova@gmail.com

**Rəyçilər**: *ped.ü.fəls.dok., prof.* **İ.N. İsayev**
*ped.ü.fəls.dok., dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub:** 14.11.2018